Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# İqtisadiyyat 1.4 faiz artıb, vergi yığımları 10 faizə yaxın

24 dəqiqə öncə




Bu ilin ilk maaşından cibdə nə qədər pul qaldı? - Vergi güzəştlərinin ləğvi başladı

Vergi güzəştinin ləğvindən sonra Azərbaycanda büdcə gəlirləri 10 faizə yaxın artırıb.

Dövlət Vergi Xidmətinin sentyabrın 4-də yaydığı məlumata görə, 2026-cı ilin yanvar – avqust aylarında onların xətti ilə dövlət büdcəsinə 12 milyard 619.1 milyon manat vergi daxil olub. **Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9.2 faiz və ya 1 milyard 58 milyon manat çoxdur.**

Qeyri-neft-qaz sektorundan vergi yığımları 12.3 faiz (1 milyard 34.1 milyon manat) artaraq 9 milyard 468.7 milyon manata çatıb. Nəticədə büdcəyə proqnozdan kənar 281.7 milyon manat əlavə vəsait ödənilib.

Bu il ölkə iqtisadiyyatında nəzərəçarpan artım qeydə alınmayıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin ilk yeddi ayında iqtisadi böyümə cəmi 1.4 faiz təşkil edib.

Əvəzində, bu il Azərbaycanda qeyri-dövlət sektoru üçün 7 illik güzəşt ləğv edilib.Onlar gəlir vergisinə cəlb edilib.

Bu il həmçinin ölkədə bir sıra sahələr üzrə cərimə və rüsumların məbləği artırılıb. O cümlədən vergi uçotuna durmadan qanunsuz sahibkarlıq fəaliyyətinə görə tətbiq olunan 40 manatlıq maliyyə sanksiyası 200 manata qaldırılıb.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur